# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASININ SƏDRİNİN YANINDA KEÇİRİLMİŞ
# “DƏYİRMİ MASA” İCLASININ
# PROTOKOLU № 04

Bakı şəhəri «07» iyun 2019-cu il

Sədrlik edirdi: Vahid Novruzov- Auditorlar Palatasının sədri

İştirak edirdilər: Nəcəf Talıbov – Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri

Qəşəm Bayramov – Auditorlar Palatası Aparatının rəhbəri

Səbuhi Gülməmmədov - Palatanın İcraçı direktoru, Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinin müdiri

**“Dəyirmi masa” üzvləri:**

Elzadə Süleymanova- “Azel-Audit” MMC-nin direktoru

Elçin Qurbanov – Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri, “VXA-AUDİT” MMC-nin direktoru

Nazim Axundov - Keyfiyyətə nəzarət komitəsinin sədr müavini, sərbəst auditor

# Gündəlik

**1.** “Auditorların və auditor təşkilatlarının müstəqilliyi haqqında ” Qaydaların layihəsinin müzakirəsi

**Məruzəçi:** Auditorlar Palatası Aparatının rəhbəri- **Qəşəm Bayramov**

**2.** “Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə şərhinin çatdırılmasına dair metodik vəsait”in layihəsinin müzakirəsi

**Məruzəçi:** Auditorlar Palatanın Aparatının rəhbəri- **Qəşəm Bayramov**

**3. “**Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının (vəzifəli şəxslərin) xüsusi hesabatı barədə Qayda və hesabat forması”nın layihəsinin müzakirəsi

**Məruzəçilər:** Palatanın İcraçı direktoru, Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinin müdiri - **Səbuhi Gülməmmədov;** Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri - **Elçin Qurbanov**

Digər məsələlər

**Eşidildi:**

Auditorlar Palatasının sədri cənab Vahid Novruzov “dəyirmi masa” üzvlərini və iclas iştirakçılarını salamladı və gündəlikdə olan məsələlərin müzakirəsinə başlamağı qərara aldı.

Gündəlikdə olan birinci məsələ ilə bağlı Auditorlar Palatasının Aparatının rəhbəri Qəşəm Bayramov “Auditorların və auditor təşkilatlarının müstəqilliyi haqqında ” Qaydaların layihəsini məruzə edərək bildirdi ki, Qaydaların hazırlanmasında əsas məqsəd auditorlar və auditor təşkilatları auditor xidmətləri göstərdikləri zaman müstəqilliyin təmin edilməsindən ibarətdir və

altı bölmədən ibarət olduğunu I. “Ümumi müddəalar” II. “Anlayışlar”, III. “Müstəqilliyə konseptual yanaşma”, IV. “Auditorun peşə fəaliyyətində müstəqilliyi”, V. “Auditorların və auditor təşkilatlarının müstəqilliyi”, VI. “Auditorların və auditor təşkilatlarının müstəqilliyinin pozulması halları” vurğuladı. Cənab Vahid Novruzov bildirdi ki, müstəqilliyin qorunmaması auditor xidmətinin aparılmasına mane olur. Nəcəf Talıbov “Auditorların və auditor təşkilatlarının müstəqilliyi haqqında ” Qaydalarda 4 və 5-ci bölmələr arasında fərqliliyin qeyd edilməsinin məqsədəmüvafiq olduğunu bildirdi. 5-ci bölmənin çox yaxşı hazırlandığını qeyd etdi. Cənab Vahid Novruzov “Auditorların və auditor təşkilatlarının müstəqilliyi haqqında ” Qaydalarda VI-cı “Auditorların və auditor təşkilatlarının müstəqilliyinin pozulması halları” bölməsinin 6.5-ci “Müqavilə üzrə ödəniş” bəndində belə sözündən sonra vergül olmamasının vacibliyini vurğuladı və bir anlayışa iki bölmədə açıqlama verməyin düzgün olmadığını qeyd etdi.

Nazim Axundov “Auditorların və auditor təşkilatlarının müstəqilliyi haqqında ” Qaydaların II “Anlayışlar” və III “Müstəqilliyə konseptual yanaşma” bölmələrinin yenidən işlənməli olmasını və tərcümənin keyfiyyətinin aşağı oolduğunu bildirdi. Nazim Axundov “Auditorların və auditor təşkilatlarının müstəqilliyi haqqında ” Qaydalarda “Saziş” sözünün “Razılaşma” sözü ilə,”Şirkət” sözünün “təsərrüfat subyekti” sözü ilə, “peşəkar mühasib” sözünün “auditor” sözü ilə, II “Anlayışlar” bölməsində 4-cü maddədə “hər kəs” sözünün “hərbir şəxs”sözü ilə, II “Anlayışlar” bölməsində 3-cü maddədə “icmal” sözünün “xülasə” sözü ilə II “Anlayışlar” bölməsində 1-ci maddədə “böyük icraçı direktor” sözünün “rəhbərlik” və ya “ idarəedici” sözü ilə əvəz olunmasını, “peşəkar inamsızlıq” termininə “risklərin minimuma endirilməsi” əlavə edilməsini təklif etdi və redaktə xarakterli dəyişikliklərin və tərcümənin daha sadə başa düşülən formada olmasının məqsədəmüvafiq olduğunu bildirdi.

Gündəlikdə olan ikinci məsələ ilə bağlı Auditorlar Palatasının Aparatının rəhbəri Qəşəm Bayramov “Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə şərhinin çatdırılmasına dair metodik vəsait”in layihəsini məruzə edərək bildirdi ki, Şərhin hazırlanmasında əsas məqsəd auditorların vəzifələrinin və peşə məsuliyyətlərinin auditor xidmətlərinin istifadəçilərinə və içtimaiyyətə açıqlanıb çatdırılmasından ibarətdir.

Cənab Vahid Novruzov “Metodik vəsait”in adında dəyişiklik edilməsini “Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə şərhinin çatdırılmasına dair metodik vəsait”də şərhinin sözünün çıxarılmasını “Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə çatdırılmasına dair metodik vəsait” kimi dəyişdirilməsini təklif etdi. Nəcəf Talıbov bildirdi ki, “Metodik vəsait” yaxşı hazırlanıb lakin, çatdırılma mexanizmi barədə və hansı formada çatdırılmalıdır qeyd olunmalıdır . Nazim Axundov “Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə şərhinin çatdırılmasına dair metodik vəsait”in layihəsinə heç bir təklifi olmadığını , lakin bir sualla əlaqədar müraciət etmək istədiyini bildirdi: Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə hansı yolla çatdırılacaq?

Gündəlikdə olan üçüncü məsələ ilə bağlı Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri Elçin Qurbanov **“**Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının (vəzifəli şəxslərin) xüsusi hesabatı barədə Qayda və hesabat forması”nın

layihəsini məruzə edərək bildirdi ki, qulluq mövqeyindən istifadə etməyin rəqabəti pozmaq ehtimalının azaldılması üçün çox vacib sənəddir.. Cənab Vahid Novruzov **“**Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının (vəzifəli şəxslərin) xüsusi hesabatı barədə Qayda və hesabat forması”na hesabat tərtib etməli şəxsləri siyahısına Sədr , Sədr müavini, Aparat rəhbəri və digər rəhbər vəzifədə çalışan şəxslərin salınmasının vacib olduğunu bildirdi. Qəşəm Bayramov beynəlxalq təcrübədə belə bir hal olmadığını və hesabat tərtib etməyin düzgün olmadığını bildirdi. Elzadə Süleymanova bildirdi ki. Haqsız rəqabətin qarşısının alınması üçün sifarişçilərə nəzarət olunmalıdır. Cənab Vahid Novruzov bildirdi ki, **“**Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının (vəzifəli şəxslərin) xüsusi hesabatı barədə Qaydada “qohum” yaxud “yaxın qohum” anlayışları dəqiqləşdirilib düzgün vurğulanmalıdır.

**Qərara alındı:**

**1.** Auditorlar Palatasının Aparatının rəhbəri Qəşəm Bayramova tapşırılsın ki, “Auditorların və auditor təşkilatlarının müstəqilliyi haqqında ” Qaydaların layihəsi təklif və iradlar nəzərə alınmaqla yenidən işlənib Auditorlar Palatası Şurasının növbəti iclasına təqdim edilsin.

**2.** Auditorlar Palatasının Aparatının rəhbəri Qəşəm Bayramova tapşırılsın ki, “Auditorların peşə məsuliyyətinin auditor xidmətindən istifadə edənlərə və ictimaiyyətə şərhinin çatdırılmasına dair metodik vəsait”in layihəsi təklif və iradlar nəzərə alınmaqla yenidən işlənib Auditorlar Palatası Şurasının növbəti iclasına təqdim edilsin.

**3.** Palatanın İcraçı direktoru, Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinin müdiri Səbuhi Gülməmmədov və Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri Elçin Qurbanova tapşırılsın ki, **“**Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının (vəzifəli şəxslərin) xüsusi hesabatı barədə Qayda və hesabat forması”nın layihəsi təkliflər nəzərə alınmaqla yenidən işlənib Auditorlar Palatası Şurasının növbəti iclasına təqdim edilsin.

**Sədr** **Vahid Novruzov**

**Katib** **Solmaz Məmmədova**